**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSR BAKI ZƏRGƏRLİYİ AZƏRBAYCAN DEKORATİV-TƏTBİQİ SƏNƏTİNİN İNKİŞAFI KONTEKSTİNDƏ

| | |
|---|---|
| İxtisas: | 6218.01 - Dekorativ-tətbiqi sənət |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Asya Əlimövsüm qızı Şirəliyeva** |

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Təsviri sənət tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Arif Şahbaz oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Telman İsmayıl oğlu İbrahimov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Həşim Kainat oğlu Paşayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd-Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Arif Möhübəli oğlu Əzizov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan dekorativ-tətbiqi sənətinin ayrılmaz qolu olan zərgərlik sənəti metalişləmənin qədim və geniş yayılmış sahələrindəndir. Zəngin və mürəkkəb inkişaf yolu keçən zərgərlik sənəti bu günə kimi həm mənbə materialının gözəlliyini, həm də onun işlənməsinin incəliyini eyni zamanda vurğulamağa imkan verən ardıcıl bədii mühit yaratmaq vasitələrindən biri olaraq qalmaqdadır.

Xüsusi diqqətə Bakı zərgərliyi layiqdir. Azərbaycan sənətşünaslığında xalq sənətkarlığının bu sahəsi dekorativ-tətbiqi sənətin digər növlərinə nisbətən az, özü də əsasən yalnız arxeoloji və etnoqrafik nöqteyi-nəzərdən öyrənilmişdir. Bakı zərgərlik sənətinin sənətşünaslıq mövqedən öyrənilməsi Azərbaycan xalqının bədii mədəniyyətinin "ağ səhifəsi" olaraq qalmaqdadır.

Qeyd etmək lazımdır ki, bu günə kimi Bakı zərgərliyinin ancaq təsviri xarakteristikası yaradılmışdır: zərgərlik məmulatlarının əsas növlərinin öyrənilməsi onların funksional xüsusiyyətlərinin və ornamental tərtibatının üzə çıxarılması, məmulatların icrasında istifadə olunan texniki üsulların araşdırılması ilə bağlı idi.

Bakı zərgərlik sənətinin öyrənilməsi zamanı sırf nəzəri tədqiqatlar aparılmamışdır, yəni məmulatların forma və məzmun vahidliyini, adət-ənənələrlə bağlı mənşəyini müəyyən edən, abidələrin məna əhəmiyyətinə varmağa imkan verən sənətşünaslıq təhlili aparılmamışdır.

Bakı zərgərlik sənətinin varislik məsələsi, xalq yaradıcılığı və dekorativ-tətbiqi sənətinin digər növləri ilə əlaqəsi problemi də kifayət qədər öyrənilməmişdir. Belə tədqiqat bu sənətin lokal özünəməxsusluğunu qoruyaraq, onların bölgə birliyini yarada bilər.

Beləliklə, bu günə kimi işlənmiş zəngin etnoqrafik, tarixi və sənətşünaslıq materialına əsaslanaraq Bakı zərgərlik sənəti tarixinin problemlərinin kompleksli elmi tədqiqinə ehtiyac yaranmışdır.

Bakı zərgərlik sənəti tarixinin öyrənilməsi və bədii irsinin təhlili bu sahədə mövcud nailiyyətləri müəyyən etməyə imkan yarada bilər. Bu baxımdan seçilən mövzunun tədqiqinin zəruriliyi danılmazdır.

Mövzunun aktuallığı bir də onunla müəyyən olunur ki, Bakı zərgərlik sənətinin öyrənilməsi şəhər əhlinin həyati ənənələrini üzə çıxara bilər. Azərbaycan milli zərgərlik sənəti, o cümlədən Bakı zərgərlik məmulatları ölkəmizə səfər edən məşhur səyyahların, tacirlərin diqqətini cəlb etmişdir.

Azərbaycan zərgərlik sənətinin etnoqrafik və sənətşünaslıq baxımından elmi tədqiqi əsasən XX əsrə təsadüf edir. Əsrin əvvəllərində bu sahəyə əsasən S. Qulişambarov[1], S.Piralov[2], V.Zqlenitski[3] kimi tarixçi-etnoqraflar diqqət yetirmişlər. XX əsrin ortalarından başlayaraq ölkə ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş zərgərlik nümunələri Azərbaycan arxeoloqlarının və tarixçilərin tədqiqatlarında aparıcı mövzuya çevrildi. Bu sahədə xüsusi əməyi olan Q.Aslanovun[4], T.Qolubkinanın[5], Ş.Sadıxzadənin[6], Q.İonenin[7], R.Vahidovun[8], O. İsmizadənin[9], Y.Paxomovun[10], İ.Nərimanovun[11],

[1]Гулишамбаров, Ш.И. Кустарные изделия из железа, меди, серебра // Обзор фабрик и заводов Бакинской губернии. – Тифлис – 1891.

[2]Пиралов, С.С. Краткий очерк кустарных промыслов в России / С.С. Пиралов – Санкт Петербург – 1913, т.2.

[3]Згленицкий, В.К. Кустарное производство золотых и серебряных изделий в Бакинском районе и Дагестане // Труды первого съезда деятелей по кустарной промышленности Кавказа. – Тифлис – 1902 – с.60-64.

[4]Aslanov, Q.M. 1963-cü ildə Abşeronda aparılmış arxeoloji qazıntı işlərinin hesabatı. / Q.M.Aslanov // MEA TİE Arxivi. – İnv. 5782; Каталог золотых и серебряных предметов из археологических раскопок Азербайджана / Г.М.Асланов, Т.И. Голубкина, Ш.Г. Садыхзаде – Золотые и серебряные предметы из археологических раскопок Азербайджана. Баку: Элм – 1966. – 72 с.

[5]Голубкина, Т.И. О минеральных бусах в погребальном культе Кавказской Албании (II-I тыс. до н.э.) // Известия АН Азерб. ССР (серия истории, философии и права) – Баку – 1989, № 3 – с. 75-81; Археологические обследования и раскопки кувшинных погребений в Азербайджане в 1953 году // Известия АН Азерб. ССР– Баку – 1959, № 1.

[6]Садыхзаде, Ш.Г. Древнейшие украшения Азербайджана / Ш.Г.Садыхзаде — Баку: Элм – 1971 – 80 с.

[7]Ионе, Г.И. Археологические раскопки в районе Мингечаур – ГЭССТРОЯ (сообщение1). Две могилы грунтового погребения со скорченным костяком. // ДАН Азерб. ССР. – Баку – 1946, №6.

[8]Vahidov, R.V. Torpaqqalada aparılan arxeoloji işlərinin ilk nəticələri // MKA. – Bakı – 1965. IV

[9]Исмизаде, О.Ш. О раскопках в Кабале на территории южной части городища в 1960 г. В кн. МКА. – Баку: Элм – 1964 – 186 с.

[10]Пахомов, Е.А. Археологические исследования и раскопки кувшинных погребений Азербайджана // Изв. АзФАН СССР – Баку – 1939, №3.

[11]Нариманов, И. Тайны учтепинских курганов // Бакинский рабочий. – 1960, 17 августа.

S.Aşurbəylinin[12], N.Minkeviç-Mustafayevanın[13], M.Xəlilovun[14], B.Rəcəbovanın[15], M.Heydərovun[16] tədqiqatlarında qədim və orta əsr bədii metal nümunələri olan zərgərlik məmulatlarının texniki və təsvir xüsusiyyətləri araşdırılmışdır.

Azərbaycan zərgərlik sənətinə sənətşünaslıq nöqteyi-nəzərindən ilk yanaşma S. Əsədova tərəfindən edilmişdir. Bu sahədə ilk fundamental monoqrafiyanın müəllifi olan S.Əsədova öz tədqiqatında XIX əsr – XX əsrin I yarısında istehsal edilmiş zərgərlik məmulatlarının bədii-texniki xüsusiyyətlərini araşdırmışdır[17]. Bu mövzuya müraciət edən N.Rzayev əsasən Azərbaycan ərazisində aşkar olunmuş Qafqaz Albaniyası dövrünə aid zərgərlik nümunələrini təsvir və tətqiq edib[18]. Akademik R.Əfəndiyevin Azərbaycan dekorativ-tətbiqi sənətinə həsr edilmiş tədqiqatlarında[19] ölkənin müxtəlif muzeylərində saxlanılan zərgərlik sənət əsərlərini təsvir edərkən onların semantik xüsusiyyətlərinə, magik-ovsun xassələrinə də toxunmuşdur.

---

[12]Ашурбейли, С. Государство Ширваншахов / Ашурбейли С. – Баку: Элм – 1983 – 344 с.; Ремесло и торговля в раннесредневековых городах Азербайджана // Azərbaycan tarixi muzeyinin əsərləri – Bakı – 1956, II c

[13]Минкевич-Мустафаева, Н.В., Рагимов, А.В. Перстни с печатями из Байлакана // ДАН Азерб ССР – Баку – 1965, № 9 – с. 89-91; Гробницы в усыпальнице Ширваншахов // Доклады АН Азерб. ССР – Баку – 1947, №1. – s.122-129.

[14]Халилов, М. Золотые изделия IV-VII веков, завезенные в Кавказскую Албанию // Азербайджан в многовековых многосторонних культурных взаимосвязях. Сборник докладов IV Бакинского Международного симпозиума – Баку – 1999, 4-6 июня 1998 – с. 250-253.

[15]Rəcəbova, B.Ə. Orta əsrBakı şəhərində zərgərlik sənətinin inkişafı haqqında // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası – 2010, №4 – s.102-107; Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVIII əsrlər) / Rəcəbova B. – Bakı: Elm – 2009 – 186 s.; Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər) / Rəcəbova B.A.  – Bakı – 2000 – 136 s.

[16]Гейдаров, М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. / Гейдаров М.Х. – Баку: Элм – 280 с.

[17]Əsədova, S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti / S.D. Əsədova – Bakı: Elm – 1978, 96 səh.

[18]Рзаев, Н. Искусство Кавказской Албании / Н.Рзаев – Баку: Элм – 1980 – 138 с.

[19]Əfəndi, R.S. Azərbaycan incəsənəti / R.S.Əfəndi – Bakı: Şərq-Qərb – 2007. – 160 səh. + 112 səh. (şəkil); Azərbaycan bəzək sənəti / R.Əfəndi, T.Əfəndi – Bakı – 2002; Народное искусство Азербайджана / Эфендиев Р. – Баку: Ишыг – 1984 – 204 с.

Xüsusi diqqətə S.Sadıxovanın Azərbaycan zərgərlik sənətinə həsr olunmuş monoqrafiyası layiqdir[20]. Azərbaycan zərgərlik sənətini Yaxın və Orta Şərq ölkələri ilə qarşılıqlı əlaqədə öyrənən müəllif, bu sənətin tarixinin öyrənilməsi və irsinin tənqidi təhlili yolunda tədqiqat aparmış, onun nailiyyətlərini və yaşanan ənənələrini üzə çıxarmağa müvəffəq olmuşdur. Bundan başqa həmin tədqiqatçının Azərbaycan Respubliası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan Milli Xalça Muzeyinin zərgərlik inciləri" adlı albom-kitabında[21] muzeyin fondunda qorunub-saxlanılan zərgərlik məmularları haqqında geniş məlumat verilir.

Lakin məxsusi olaraq Bakı zərgərliyinin öyrənilməsinə, onun tarixi köklərinin araşdırılmasına, inkişaf mərhələlərinin aşkarlanmasına və müasir vəziyyətinin müəyyən olunmasına həsr olunmuş xüsusi tədqiqat mövcud deyil.

Düzdür, bir qisim tədqiqatçılar tərəfindən, istər tarixi-etnoqrafçılar, istər sənətşünaslar olsun, bu sırada jurnalist araşdırmalarını da əlavə etmək olar, Bakı zərgərlik sənətinin ayrı-ayrı nümunələri tədqiqata cəlb edilmişdir. Bu sırada K. Əliyevanın[22], P.Əlioğlunun[23], Əşrəf Səid İbrahimin[24], K.Hadıyevanın[25], F. İbrahimo-vun[26], H.İsabalayevanın[27],

---

[20]Садыхова, С.Ю. Ювелирное искусство Азербайджана в контексте развития многосторонних культурных взаимосвязей. / С.Ю.Садыхова – Баку: Элм – 2009 – 274 с.

[21]Sadıxova, S.Y. Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından zərgərlik inciləri. / S.Y.Sadıxova – Bakı – 2020 – 140 s.

[22]Əliyeva, K. Zərgərlik xalq sənəti // Ədəbiyyat və incəsənət. – 1979, 29 iyun – s.5; Zərgərliyə zərgər diqqəti // Ədəbiyyat və incəsənət – 1977, 10 sentyabr. – s. 7.

[23]Əlioğlu, P. Zər qədrini zərgər bilər. El sənətləri //– Bakı: Qobustan, – 2009, №1. – s. 26-28.

[24]Əşrəf Səid İbrahim. Şamla axtaram gərək. (Cəmaləddin Əyyubov) // – Bakı: İncəsənət – 1993, 4 may – s. 2.

[25]Hadıyeva, K.G. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi bəzəkləri (tarixi-etnoqrafik tədqiqat) / tarix üzrə namizədlik diss. avtoreferatı – Bakı, 2005 – 30 s.

[26]İbrahimov, F.A. Bakıda metalişləmə tarixi: IX - XII əsrlər / F.A. İbrahimov – Bakı: Elm – 1995.

[27]İsabalayeva, H. Bakı – XIX əsrin sonlarında zərgərliyin ən böyük mərkəzi kimi // Kaspi – 2011, 22 fevral. – s.12.

A.Quliyevin[28] eləcə də yuxarıda adı çəkilən S.Sadıxovanın[29] Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş "İçərişəhər Azərbaycan tarixində" toplusuna salınmış Bakı və Şirvan zərgərlik sənətinə həsr olunmuş tədqiqat materialını da qeyd etmək lazımdır.

Lakin bütün bu tədqiqatlar Bakı zərgərliyi haqda ümumi mənzərənin yaranmasına imkan vermir. Bakı zərgərlik sənətinin inkişafı tarixinə, geniş materialın sənətşünaslıq təhlilinə və ümumiləşdirilməsinə həsr edilmiş heç bir tədqiqat əsəri yazılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində Bakı zərgərlik sənətinin qədim dövrə, orta, XIX və XX əsrlərə aid edilən təyin edilmiş və az öyrənilmiş abidələri çıxış edir. Tədqiqatın obyekti qismində XX əsrin son illərindən başlamış XXI yüzilliyinin 20 ili ərzində zərgərlik sənəti üzrə fəaliyyət göstərən rəssamların və xalq ustalarının yaradıcılığı da cəlb olunub.

Tədqiqatın predmeti kimi Bakı zərgərlik sənətinin xalq yaradıcılığı növü olaraq Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafı kontekstindəki təkamülü çıxış edir. Elmi-tədqiqat işinin predmeti kimi yeni dövr Azərbaycan zərgərliyinin inkişaf istiqamətləri və mövcud təmayülləri çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini Azərbaycan zərgərlik sənətinin ayrılmaz hissəsi olan Bakı zərgərliyinin ideya-bədii özünəməxsusluğunun müəyyən edilməsi və bu problemin milli dekorativ-tətbiqi sənətin inkişafı kontekstində araşdırılıması təşkil edir.

Bu məqsəddən çıxış edərək tədqiqatın qarşısında duran məsələləri aşığıdakı kimi müəyyən etmək olar:

- zərgərlik sənətinin bədii yaradıcılıq növü kimi səciyyəvi xüsusiyyətlərini müəyyən etmək;

---

[28]Quliyev, A. Zərgərlik məmulatlarımız dünya sərgilərində // İncəsənət – 1993, 17 mart – s. 7; Mirzə Rzayevin zərgərlik məktəbi //İncəsənət – 1993, 18 may. – s. 5; Zərgər Mirdadaş Mirəhmədov // İncəsənət – 1992, 14 dekabr – s. 3; Zərgər Rəhimovlar ailəsi //İncəsənət – 1994, 9 iyun – s.7; Zərgər Cümşüdovlar şəcərəsi // İncəsənət – 1993, 25 avqust. – S. 4-7; Zərgər Babayevlər ailəsi //İncəsənət – 1993, 8 iyun – s.7; Zərgər ingilis Ələbbas // İncəsənət – 1994, 10 may – s. 3; Quliyev, A. Zərgər Əsəd Əliyev //İncəsənət – 1993, 6 fevral – s. 3; Zərgər Kərbəlayi Soltan Əliyev //İncəsənət – 1993, 28 sentyabr – s. 6; Kubaçılı zərgər İbrahim İlyanov // İncəsənət – 1993, 15 sentyabr – s. 5-8; Zərgər Kərbəlayi Cabbar Məşədi Səfəroğlu // İncəsənət – 1993, 14 oktyabr – s. 5.

[29] Sadıxova, S.Y. Bakı və Şirvan zərgərlik sənəti. İçərişəhər Azərbaycan tarixində. / S.Y.Sadıxova – Bakı: Şərq-Qərb – 2015 – s. 205-225.

- qədim və orta əsrlərdə Bakı zərgərlik məktəbinin inkişaf mərhələlərini araşdıraraq onların funksional və estetik rolunu təhlil etmək və Azərbaycanın xalq sənətkarlığındakı rolunu təyin etmək;

- XIX-XX əsrin əvvəllərində zərgərlikdə bədii ənənələrin rolunu müəyyən edərək insanların təfəkkürü ilə bağlı bədii ideyaların təkamülünü müəyyən etmək;

- Bakı zərgərlik sənətinin aparıcı təmayüllərini və üslubun formalaşması cizgilərini aşkar etmək, ənənələrin varisliyini təyin etmək;

- Bakı zərgərlik məktəbinin sovet dövründə inkişafı kontekstində Bakı zərgərlik zavodunun fəaliyyətini araşdırmaq;

- çağdaş Bakı zərgərliyində ənənə və müasirlik probleminin həlli zamanı müasir Bakı zərgərlərinin fərdi xüsusiyyətləri və üslub müxtəlifliyini müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiya işi Azərbaycan cəmiyyətinin ictimai-iqtisadi həyatı nöqteyi-nəzərindən tarixi-müqayisəli və müqayisəli-kulturoloji metoduna əsaslanır. Bu metodlar Bakı zərgərlik sənətinin tərəqqisi və ya tənəzzülünü izləməyə və xalqın estetik təsəvvürlərini və bədii ənənələrini tədqiq etməyə imkan yarada bilər.

Bakı zərgərlik sənətinin inkişaf tarixinin Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafı kontekstində bu günə kimi öyrənilməməsini, eləcə də zərgərlik əşyalarının ayrı-ayrı növlərinin sənətşünaslıq təhlilinin olmadığını nəzərə alaraq tədqiqata cəlb olunan geniş əhatəli əyani material tarixi-nəzəri sənətşünaslıq aspektindən araşdırılır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Bakı zərgərlik sənət nümunələri həm Güney, həm də Qüzey Azərbaycanının bədii-texniki ənənələrinin təsiri altında formalaşıb inkişaf etmişdir;

- Bakılı zərgərlər ən çox qızıl və gümüş metallardan məmulatlar hazırlayırdılar;

- Bakılı zərgərlərinin ən çox istifadə etdiyi texnikaları şəbəkəçilik və minasaqlıq təşkil edirdi;

- Bakı zərgərliyi sülalə xarakteri almış, bir ailəyə məxsus bədii-texnoloji üsullar nəsildən nəsilə ötürülürdü;

- Bakı zərgərlik sənətinin təkmilləşməsi və zənginləşmsində Xalq rəssamları L.Kərimovun və K.Əliyevin rolu danılmazdır;

- Bakı zərgərlik zavodunun yaradılması yerli ustaları stimullaşdırdı və onların fərdi dəst-xəttinin formalaşmasına səbəb oldu;

- müasir rəssam-zərgərlərin yaradıcılığında ənənəviliklə yanaşı novatorluq meylləri də nəzərə çarpır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakı müddəalarda öz əksini tapır:

1. Azərbaycan sənətşünaslığında Bakı zərgərlik məktəbi ilk dəfə olaraq müstəqil monoqrafik tədqiqat obyekti kimi çıxış edir;
2. ilk dəfə olaraq bədii baxımdan formalaşmış qədim və orta əsrlər Bakı zərgərlik nümunələrinin işlənmə texnikası, naxışları və ornamental kompozisiyalar sistemli və müstəqil tədqiqat obyektinə çevrilmişdir;
3. Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Bakı zərgərlik sənətinin də dekorativ-tətbiqi sənətin digər növləri ilə, o cümlədən geyim, xalça sənəti və s. üzvü surətdə bağlı olması, onlardan bəhrələnməsi və onlara təsir etməsi təsdiqini tapmışdır;
4. göstərilir ki, digər regionlardan fərqli olaraq Bakı zərgərlik məmulatları özündə həm şimal, həm də cənub təsirlərini akkumulyasiya edib formalaşmış, mürəkkəb naxışlı dəqiq, plastik kompozisiya quruluşlarına nail ola bilmişlər;
5. Azərbaycan zərgərlik sənətinin şəbəkəçilik və minasazlıq texnikalarının Bakı zərgərliyi üçün aparıcı mövqedə durması müəyyən olunmuş, bu texniki növlərdə işlənmiş zinət əşyalarının ornamental tərtibatının və üslub cizgilərinin özünəməxsusluğu aşkar edilmişdir;
6. Bakı zərgərlik fabrikinin Bakı zərgərlik sənətinin dirçəlməsində və inkişafında rolu müəyyən olunmuş, onun müxtəlif sahələrdə çalışan peşəkar ustaların fəaliyyətində yenidən canlanmaya səbəb olması vurğulanmışdır;
7. ilk dəfə olaraq novatorluğa meylli olan müasir rəssam-zərgərlərin üslub xüsusiyyətləri, dəst-xətti və manerası öyrənilmiş, ənənəviliklə yanaşı tərtib edilən modern üslublu formalar aşkarlanaraq üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi-praktiki nəticələri Azərbaycan incəsənəti tarixi, xüsusilə XIX-XX əsrlərin Azərbaycan maddi mədəniyyətinin öyrənilməsi üçün material kimi istifadə oluna bilər.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının dekorativ-tətbiqi sənətinin ayrılmaz qolu olan zərgərlik sənətinin tədqiqi təkcə sənətşünaslar, tarixçilər, etnoqraflar üçün deyil, eyni zamanda sənətkarlar üçün də, xüsusilə metalişləmə, zərgərlik sənəti sahəsində püxtələşən rəssamlar üçün önəmlidir. Son illərdə zərgər-rəssamların və yerli zərgər ustaların Bakı zərgərliyinə xas ənənəvi texnikalarda hazırladığı ənənəvi

və müasir modern nümunələrin tədqiqi və təhlili gələcək nəsil sənətkarların – modelyer, teatr, kino, rəngkar və qrafika rəssamlarının, xüsusən kitab qrafikaçıların tarixi keçmişimizin doğru-dürüst surətlərini yaratmasına imkan verə bilər, eyni zamanda milli zərgərlik sənətinin klassik kanonlarına xələl gətirmədən müasir interpretasiyalarını işləməyə köməklik edə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları müxtəlif səviyyəli 4 elmi konfranslarda dinlənilmiş, eləcə də 11 elmi məqalədə əksini tapmışdır. Tədqiqat işi Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin "Təsviri sənət tarixi və nəzəriyyəsi" kafedrasında müzakirə olunub. Dissertasiya işi sənətşünas ixtisasına yiyələnən və dekorativ-tətbiqi sənətlər üzrə təhsil alan tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı tətbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Təsviri sənət tarixi və nəzəriyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 6 səh., 1.1. – 16 səh., 1.2. – 25 səh., 2.1 – 33 səh., 2.2. – 32 səh., Nəticə – 6 səh. olmaqla dissertasiyanın ümumi həcmi 231.805 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən şəkillər isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun müasir sənətşünaslıq elmi üçün aktuallığı, tədqiqatın obyekti, predmeti və problemləri, məqsəd və vəzifələri, tədqiq tarixi və işlənmə dərəcəsi, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Bakıda zərgərlik sənətinin inkişaf mərhələləri"** adlı **I fəslin "Qədim dövr və orta əsrlər Bakı zərgərliyinin inkişafı"**na həsr olunmuş 1-ci paraqrafında qədim və orta əsrlərdə Bakı zərgərlik məktəbinin inkişafı izlənilir. Abşeron yarımadası və Bakı şəhəri insanların qədim dövrlərdən məskən saldığı ərazilərdir. Aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri sübut edir ki, bu yerlərdə sənətkarlığın bir çox növləri o

cümlədən zərgərlik sənəti inkişaf etmişdir. Arxeoloq Q.Aslanovun Mərdəkan və Şüvəlan kəndləri arasında yerləşən Ağdaş düzündə apardığı qazıntılar nəticəsində tünc dövrünə aid tunc kəmər tapılmışdır[30]. Bu ərazidə son dövrdə aparılmış arxeoloji qazıntılar da nəticə vermişdir. Arxeoloq İ.Əliyevin başçılığı ilə aparılan arxeoloji ekspedisiya tərəfindən Abşeron mayakı ətrafındakı daş qutu qəbirlərindən b.e.ə. VIII-VI əsrlərə aid edilən tunc üzük, sancaq, asma, muncuq, 38 əqiq və 22 ədəd kauri aşkar olunmuşdu[31].

Bakıda aşkar olunmuş qadın bəzəklərinin xüsusi qrupunu asmalar təşkil edir. Asmalar adətən boyunbağı ilə birgə, bəzən isə ayrıca taxılırdı. Mis və tunc asmalar tökmə və döymə texnikasında düzəldilirdi. Onların İçərişəhərdə aşkar olunmuş bir qismi döymə üsulu ilə mis vərəqdən düzəldilmiş asmalardan ibarətdir. Nazik vərəqdən düzəldilmiş bəzəklərin ucları qırılmışdı. İki nüsxənin ortasında dəlik var. Onların birində dəlik ətrafında çökük dairə təsvir olunmuşdu. Bu tipli lövhə səkilli asmaların bir tərəfi çox vaxt ornamental dekorla bəzədilirdi, o biri tərəfi hamar qalırdı[32].

İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı sırğa məmulatları də aşkar olunmuşdu. Bir qayda olaraq, nazik metaldan hazırlanmış əşyalar güclü korroziyaya və parçalanmaya uğramışlar, ona görə də az sayda qalmışlar. Şübhə yoxdur ki, qazıntılar zamanı aşkar olunmuş halqa şəkilli ayrı-ayrı nümunələr, həm üzük, həm də sırğa kimi istifadə edilirdi. Belə ki, birləşməmiş ucları olan dairəvi formalı məmulatlar, şübhəsiz, sırğa kimi istifadə olunurdu. Bu tip sırğalar Beyləqanda və Qəbələdə aşkar olunmuşlar[33].

1946-cı ildə Bakıda Şirvanşahlar sarayının məqbərəsində XV əsrə aid bir cüt dairəvi halqadan ibarət olan qızıl sırğa aşkar olunmuşdur. Ucları kəsik formalı hörülmüş məftillərdən hazırlanmış sırğanın bir tayının halqa hissəsinə ürək formasında çəhrayı rəngli, yaxşı cilalanmış

---

[30] Aslanov, Q.M. 1963-cü ildə Abşeronda aparılmış arxeoloji qazıntı işlərinin hesabatı. MEA TİE Arxivi. İnv.5782.

[31] Алиев, И.Н. Результаты археологических работ вокруг Абшеронского маяка / Материалы международной научной конференции по археологии и этнографии // 11-12 сентября, 2008, с. 115-119

[32] İbrahimov, F.A. Bakıda metalişləmə tarixi: IX – XII əsrlər. / F.A. İbrahimov – Bakı: Elm, 1995, s.22.

[33] İbrahimov F.Ə. Örənqaladan tapılmış metal bilərziklər və onların texnologiyasına dair //Azərb. SSR EA Xəbərləri (tarix-fəlsəfə və hüquq seriyası)1967, № 2, s.18.

qaş salınmışdır. Sırğanın digər tayının qaşı isə düşmüşdü[34]. Qızıl sırğa Bakının qədim qəbiristanlığında da tapılmışdı. Qulağa keçirilən hissəsi sual işarəsi formasında olan aypara sırğa XIV əsrə aid edilir[35].

İçərişəhərdə qazıntılar nəticəsində aşkar olunmuş başqa bir qrup bəzəklər qolbaqlarla təmsil olunmuşdu. Burada tapılmış əksər qolbaqlar qırıqlardan ibarətdir, buna görə də onların dəqiq formasını müəyyən etmək çətinlik törədir.Bakının qədim müsəlman qəbiristanlığında metal bəzəklər arasında iki mis və bir gümüş qolbaq tapılmışdı. Bu bəzəklər öz xarakterinə və analoqlarına görə XII-XIII əsrlərə aid edilirlər.

Məmulatların hazırlanması və tərtibatında ustalar müxtəlif üsullardan istifadə edirdilər: döymə, qəlibləmə, naxışvurma, lehimləmə, çəkmə, zərb etmə, şəbəkə, xatəmkarlıq, qarasavad, mina çəkmə. Daha öndə gedən texniki metod bu dövrdə döymənin yerinə gələn möhürləmə hesab olunurdu. Bu üsulun tətbiqi əmək istehsalını artırır və məmulatın maya dəyərini azaldırdı.

Tədqiq olunan dövrdə Bakıda mövcud zərgərlik məmulatlarının istehsalı, təkamülü və inkişafı haqqında daha dərin və dəqiq fikir yürütmək çətindir, buna da səbəb son orta əsrlər dövrünə aid materialın olmamağı və ya azlığıdır. Yuxarıda təsvir olunan zərgərlik məmulatlarının ən parlaq nümunələri, tətbiqi-dekorativ sənətin bu sahəsinin vəziyyətini yalnız qısa məzmunda səciyyələndirir. Ayrı-ayrı götürülən məmulatların və motivlərin çox cüzi sadalanması ilə kifayətlənərək, yenə də ənənəvi obrazlar üzərində qurulan, onların cizgi və intonasiyasını daxil edən təkamülü izləmək olur.

**I Fəslin "XIX-XX əsrin əvvəllərində zərgərlikdə bədii ənənələrin rolu"** adlı 2-ci paraqrafında qeyd olunur ki, sürətlə böyüyən kapitalist Bakısı XIX əsrin sonlarında Azərbaycan zərgərlərinin ən böyük mərkəzinə çevrilmişdir. Bakı zərgərləri qəlibkarlıq, şəbəkəçilik, qarasavad və ya minasazlıqla ənənəvi gözəllik qanunlarına riayət edərək zəngin dekor müxtəlifliyi yaratmışlar. Qızıl və gümüş zinətinin hazırlanmasında bədii metal sənətinin müxtəlif üsullarından istifadə olunmuşdu. Zinətin bədii formasını və dekorativ bəzək məziyyətini gücləndirtmək məqsədilə Azərbaycan zərgərliyində qədim zamanlardan

---

[34]Асланов, Г.М. Золотые и серебряные предметы из археологических раскопок Азербайджана. / Г.М.Асланов, Т.И.Голубкина, Ш.Г.Садыхзаде – Баку: АН Азерб. ССР, 1966, 72 с.

[35] Rəcəbova, B. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVIII əsrlər) / B. Rəcəbova – Bakı: Elm, 2009, 186 s.

başlayaraq bir sıra texniki üsullar tətbiq olunub. Zinət ustaları iş prosesində həm yekcins metal (qızıl və ya gümüş), həm də cavahiratdan (ləl, yaqut, firuzə, inci, brilyant, əqiq və s.) ibarət müxtəlif materialların ahəngdar qatışığından istifadə etdiklərindən həmin üsulların, demək olar ki, hamısına mükəmməl bələd idi. İstehsal texnikasına görə zərgərlik məmulatları sadə, yaxud mürəkkəb quruluşda hazırlanırdı. Nəqş ünsürlərinin istehsal tələbinə uyğun olaraq, zinət növləri müvafiq texniki üsullarla düzəldilirdi. Zərgərliyin ən qədim və bəsit üsullarından biri qəlibkarlıq olub. Azərbaycanın müxtəlif etnoqrafik bölgələrindəki məhəlli zərgərlik mərkəzlərində bu üsul basma, basmaqəlib, çaxma və ya çaxmaqəlib adı ilə geniş yayılmışdı.

XIX-XX əsrlərdə Bakı zərgərlik məktəbinin bədii-texniki xüsusiyyətlərini yaradıcılığında cəmləşdirməyi məharətlə bacaran şəbəkəçilərdən biri usta Məmməd Şəfi olmuşdur. Zərgərin hazırladığı taclı çutqabağı və boğazaltını xüsusilə qeyd etmək lazımdır[36].

Bakılı usta Məmmədin hazırladığı boğazaltı göstərir ki, bu tip zinət ideya-bədii və texniki dəyişikliyə uğramış, lakin müxtəlif çeşiddə hazırlanmışdır. Burada sənətkar hətta öz işini belə təkrar etmir. Boğazaltının aypara, balıq, günəş, ulduz və digər formaları keçmişdə bütpərəstliyin, sonralar zərdüştiliyin, həm də dövlətin rəmzi olmuşdur. XIX-XX əsrlərdə bunlar məişət ehtiyaclarını ödəyərək ailə, nikah adətlərinin rəmzini ifadə etmişlər[37].

Qarasavad sənətkarlığı özündən əvvəl gələn zərgərlik üsulları zəminində dolğunlaşmış, bədii yaradıcılıq üsuluna çevrilmişdir. Burada qəlibkarlıq, şəbəkəçilik və cızma, qazıma dekora işlərindən istifadə olunmuşdu. Bu zərgərlik texnikasının mahir bilicilərindən Bakılı ustalar Hacı Əbdüləli, M.Rzayev, H.Rzabəyov, Ş.Əliyev və b. qadın kəmərlərini, usta H.Ə.Axundov müxtəlif medalyon və məişət qablarını incə, gözəl qarasavad naxışları ilə kontrast dekorlu rəng imtizacında bəzəyirdilər. Bakı qarasavad məktəbinin ustaları az da olsa, həm arxaik formanın biçimini dəyişdirərək onu kamilləşdirir, həm də naxış ünsürlərini ahəngdar bədii surətdə işləyirdilər. Odur ki, burada həm məmulatın sərbəst hissələri, həm də naxışı həddən artıq üslublaşdırılır[38].

---

[36]Kərimov, L. Bədii metal ustaları (zərgərlər). / L.Kərimov, S.Əsədova – Bakı, 1964, s.12.

[37]Əfəndiyev, R. Azərbaycanın maddi mədəniyyət nümunələri. / R.Əfəndiyev – Bakı, 1960, s. 92-93.

[38]Əliyeva, K. Zərgərlik xalq sənəti //Ədəbiyyat və incəsənət. – 1979, 29 iyun. – s.5.

Mina çəkmə işinin xüsusiyyəti oyma rəsmin rəngli mina ilə doldurulmasından ibarət idi. Bu məqsədlə qızıl, gümüş, yaxud başqa metal əsasa rəsmi basmanaxış üsulu ilə köçürür və əmələ gələn oyuqları maye mina ilə doldururdular.Mina çəkmə işinin ən mürəkkəb və maraqlı sahəsi arakəsməli minadır. Bu zaman metal səthə sim, yaxud zolaqlar lehimlənir və beləliklə əmələ gəlmiş oyuqları şüşə kütləsi ilə doldururdular. Tarixdən məlumdur ki, bu texnikada yerinə yetirilən yüksək keyfiyyətli Bakı məmulatları XVIII əsrdə dünya bazarında görkəmli yer tuturdu. Əbəs yerə deyil ki, XIX əsrin məşhur minasazları olan Məşədi Əbdüləziz, Usta Aslan, Molla Fərəcin, Kərbəlayı Cümşüdün, Aslanovun adları indi də xalq arasında tanınır.Bu dövrdə Azərbaycanda minasazlıq zinətlərinin hazırlanması əsas etibarilə Bakıda başlanır. Dünya miqyasında ilk dəfə olaraq Azərbaycandan bakılı zərgərlərin Hacı Məmməd Hüseyn Hacı Yusif oğlu və Məlik Məmməd Hacı Yusif oğlunun hazırladıqları minalı qızıl qab və bəzək məmulatları 1851-ci ildə London sərgisində nümayiş etdirilir.

XIX əsrdə yaşayıb yaratmış görkəmli dekorativ incəsənət qızıl və gümüş ustalarından biri də Bakılı zərgər minasaz Mirdadaş Mirəhmədov olmuşdur. Bakı minasazlıq məktəbinin əsasını qoyanlardan biri olan zərgər Mirdadaş Mirəziz oğlu Mirəhmədov 1903-cü ildə Peterburq sərgisində milli üslubda hazırladığı “cərgəgül” adlı minalı çutqabağı və minalı “silsilə” baş bəzəyini nümayiş etdirir və fəxri diploma layiq görülür.1903-cü il Peterburqda bədii metal və daş məmulatları sərgisində Bakı minasazlıq məktəbinin nümayəndəsi Əsədulla Axundov da yarpaq çələngi ilə bəzədilmiş minalı qızıl çutqabağısını nümayiş etdirərək fəxri diploma layiq görülmüşdür.

Minasazlığın sirlərinə mükəmməl bələd olan zərgər Mirzə Rzayev böyük zərgərlik məktəbinin əsasını qoymuşdur. O, fərdi şəkildə zərgər hazırlamaqla bərabər zərgər kadrların mütəşəkkil şəkildə hazırlanması təşəbbüskarı və iştirakçılarından idi. Bununla əlaqədar o, 1899-cu ildə Bakı zərgərlərinin zərgərlik məktəbinin təşkil edilməsinə dair keçirdiyi iclasın protokolunu imzalamış və bu məqsədlə tələb olunan məbləği ödəmişdi.

XIX əsrə aid edilən zərgərlik məmulatlarının təhlili sübut edir ki, Azərbaycanda, o cümlədən Bakıda patriarxal-feodal münasibətlərin və feodal cəmiyyətin mədəniyyətinin konservasiyası ilə müşayiət olunan bu dövrdə, yeniliyin inkişafına və axtarışına təbii meyl var idi.

Dissertasiyanın “**Bakı zərgərlik məktəbinin Azərbaycan**

**dekorativ-tətbiqi sənətində yeri"** adlı **"Bakı zərgərlik məktəbinin sovet dövründə inkişafı"**na həsr olunmuş **II fəslin** 1-ci paraqrafında Bakı zərgərlik məktəbinin sovet dövründə inkişafı araşdırılır. Bu dövrdə zərgərlik məmulatlarının ləng surətli əl əməyi istehsalı, vəsait kasadlığı, yüksək maya dəyəri, məişət istifadəsindəki dəblərin dəyişdiyi ilə əlaqədardır. Azərbaycan sovet zərgərlik incəsənətinin yeni ideoloji zəminində formalaşan məmulat nümunələrinin istehsalı və məişət tələbləri də tədricən yaranır. Belə ki, bərpa dövrünün zərgərliyində müasir ideologiyanın rəmzi ifadələri yeni ornament formalarında sərbəst hazırlanmır, bədii irsimizin qabaqcıl səciyyəli ənənələrinə əsasən modernizə edilirdi. Belə məmulatlar təbiidir ki, milli bəzək əlamətlərini özündə saxlamaqla yeni motivlərlə daha da zənginləşdirilir. Zərgərlik sahəsində işləyən qocaman ustalar müəllimləri olan o dövrün mahir zərgərlərini ehtiramla yad edirdilər: Molla Əhməd, Məşədi Qədir, Məşədi Cabbar, usta Əzizağa, Salman Rzayev və b. xalq ustaları 1920-ci illərin əvvəllərində kiçik artellərdə birləşərək zinət və inqilabi bayramlara, yubiley tarixlərə həsr olunmuş unikal tematik əsərlər yaratmışlar. 1930-cu illərdən başlayaraq Azərbaycanda minasazlıq, qaxma və zərgərlik məmulatlarının digər tərtibat texnikaları bərpa edildi.Bu dövrdə kustar kooperasiyasının zərgərlik emalatxanaları qadın zinət bəzəklərinin istehsalı ilə bağlı əhəmiyyətli iş aparırdı.

Bakıda zərgərlik fabrikinin təşkili Azərbaycan sovet zərgərliyi tarixində mühüm hadisə idi. Fasiləsiz xammal təchizatı, sənayenin mexanikləşdirilməsi, fabrikin işinə xalq ustalarının cəlb edilməsi – bütün bunlar silsilə zərgərlik məmulatlarının istehsalına səbəb oldu. Fabrikdə Orta Asiya, Zaqafqaziya və keçmiş Sovet İttifaqının digər respublikalarının və şəhərlərinin etalonları üzrə sifarişlər yerinə yetirməyə başladılar. Fabrikdə tanınmış usta-zərgərlərdən Həsən Quliyev, Heydər Aşumov, Əbdürrəhman Hacı Xalıqov və b. çalışırdılar.

Beləliklə, sovet dövründə zərgərlik Azərbaycanda iki istiqamətdə – fabrik istehsalında və xalq zərgərlik yaradıcılığı yolu ilə artellərdə davam etdirilirdi. Həmin illərdə Bakı zərgərlik fabrikində Qərb üslubunda hazırlanmış nümunələr də modernizə edilirdi. Fabrikdə məişətdə istifadəsinə ehtiyac duyulan zinətlər (üzük, sırğa və sancaqlar) daha çox istehsal olunurdu. Fabrikdə milli zərgərlik nümunələrindən olan "paxlava" və ya "badamı" adlı "gül", "təkqaş" üzüklər, "badamı", "xəmraşı" sırğalar modernizə edilir, onların hər bir kiçicik hissəsi belə

ovma, yonma əsasında sərrast surətdə biçilir, sonra da yonulmuş bu hissəciklər lehimlə birləşdirilirdi.

1936-cı ildə təşkil olunmuş "İttifaqzərgərticarətin" Bakı şöbəsinin istehsalat kombinatının zərgərləri Moskvada kənd təsərrüfatı və Ümumdünya Paris sərgilərində nümayiş etdirilməsi nəzərdə tutulan müxtəlif çeşidli bəzək məmulatları hazırlayırlar. Bunlardan "boğazaltı", "iki parça" adlı qolbaq, gümüş piyalə və sənduqə xüsusilə fərqlənirdi. Qeyd etmək lazımdır ki, bu məmulatların hazırlanmasında kombinatın görkəmli zərgəri Əsəd Əliyevin böyük xidməti olmuşdur. Zərgərliyin bütün sahələrinə dərindən bələd olan bu sənətkar, eyni zamanda məşhur sərraf və xalça bilicisi olmuşdur.

Vaxtilə İçərişəhərdə yerləşən zərgərlik fabrikinə görkəmli şəbəkə ustaları Heydər Haşımov, Həsən Quliyev, Fuad Əliyev, Ağarza Mütəllibov və başqaları ilə birlikdə işləyən Xalıq Babayev, müxtəlif bəzək məmulatları hazırlayırdı. Zərgər Xalıqın şəbəkə üslubunda hazırladığı "Gül sırğa", "Gül qolbaq", "Hörmə boyunbağı" və s. bəzək məmulatları gəlin və qızların sevimli zinətləri olmuşdur. Səməd Vurğunun "Vaqif" əsərində Qacar şah rolunda çıxış edən görkəmli səhnə ustası Sidqi Ruhullanın başına qoyduğu tacı Xaliq Babayev və zərgər Heydər Haşımov birlikdə gümüşdən hazırlamışlar. Məlum səbəblər üzündən ötüb keçən illərdə zərgərlik üstündə Dövlət Təhlükəsizlik Komitəsinin ciddi nəzarəti var idi və hər hansı bir zərgərin fəaliyyəti istənilən vaxt dayandırılırdı. Xalıq Babayev də görünür kimlərinsə qəzəbinə düçar olmuşdur. 1961-ci ildə Xalıq Babayevin baş usta işlədiyi zərgərlik dükanı yoxlanılarkən müəyyən çatışmazlılıqlar meydana çıxarılır və o il yarım azadlıqdan məhrum olunur və yenidən 1981-1985-ci illərdə həbs edilir. Sağlamlığını itirmiş vəziyyətdə həbsdən azad olunan zərgər artıq işləyə bilmir və 1987-ci ildə dünyadan köçür[39].

Müharibədən sonrakı illərdə Bakı zərgərlik fabrikinin fəaliyyətində müəyyən dəyişiklik nəzərə çarpır. İstehsalatın mürəkkəb sahələri tədricən kamilləşdirilərək əl ilə icra olunan işlər yarı və ya bütünlüklə mexanikləşdirildi, əl alətləri təkmilləşdirildi. Bu illərdə fabrikdə qəlibkarlıq, şəbəkəçilik, oyma və s. zərgərlik üsulları bərqərar oldu. Zərgərlik fabrikində məmulatın keyfiyyətini yüksəltmək məqsədilə əmək bölgüsü yaradılmış, sırğa və üzük ustaları yetişmişdir. Bunlar T.Fətullayev, R.Əbdülsalamov, A.Ağayev, D.Almazov, bilərzik

[39]Quliyev, A. Zərgər Babayevlər ailəsi // İncəsənət. – 1993, 8 iyun. – s. 7.

hazırlamaq işində fərqlənən H.Hacıyev, H.Məmmədov, cilalayıcı C.Sadıxov və digər zərgərlərdir.

1950-1960-cı illərdə Bakı zərgərlik fabrikində Qərb üslubunda hazırlanmış qızıl və gümüş zinətlər müasir formada təkrarən istehsal olunur. Yeni məzmunlu naxış motivləri bu cür məmulata bədii formada tətbiq edilirdi. Öz işləri ilə fərqlənən belə şəbəkəçilərdən T.Quliyevi, A.Şixəmirovu və Q.Qəribovu misal gətirmək olar.

1958-ci ildə fabrikdə məmulatı minasazlıqla bəzəyən şöbə açılsa da, bu şöbə yalnız nadir istehsalat sifarişlərini həyata keçirirdi. 1960-cı ildə zərgərlik fabrikində rəssam və usta kollektivi tərəfindən kişi və qadınlar üçün minasazlıqla gümüş zinətlərin istehsalına başlanır. Ustaların əsas məqsədi ənənəvi zərgərlik üsullarını bərpa etmək olduğu üçün bu iş fərəhləndirici hadisə sayılırdı[40].

Zərgərlik sənətinin inkişafında Xalq rəssamı Kamil Əliyevin də əməyi danılmazdır. Rəssamın zərgərlik irsi onun Bakı zərgərlik zavodundakı işi ilə əlaqədardır (1962-1971-ci illər). 1964-cü ildən o, 8 il ərzində fabrikin direktoru vəzifəsində çalışaraq işə rəhbərlik etmiş və zavodun məhsullarını yüksək səviyyəyə qaldırmağa müyəssər olmuşdur. Əgər 1962-ci ildə zərgərlik məmulatlarının hazırlanması üçün 100 kq qızıl emal olunurdusa, artıq 1970-ci ildə bu miqdar 1000 kq qədər artmışdır. 1962-ci il ərzində zərgərlik məmulatlarının tərtibatında orta hesabla 500 karat brilyantdan istifadə edilmişdi. 1971-ci ildə sənaye dövriyyəsinə artıq 5000 karat getmişdir. Zərgərlik məmulatının çeşidi də artmışdır. Asma, sırğa, üzük, qolbaq və bir çox başqa zinət əşyaları alıcıların böyük tələbatına səbəb olmuşlar[41].

Zərgər Gülbala Hüseynovun əl işləri arasında 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə nümayiş etdirilən zərif qadın baş bəzəyi və boğazaltı xüsusi yer tutur. Ümumiyyətlə, zərgər Gülbalanın yüksək zövq və sənətkarlıqla hazırladığı müxtəlif şəbəkəli çutqabağı, silsilə, boğazaltı, üzüklər, sırğalar, kəmərlər və başqa bəzək əşyaları yüksək sənətkarlıq örnəkləridir. Həmin işlər həm Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, həm də 1969-cu ildə Əlcəzairdə açılmış beynəlxalq yarmarkada mütəxəssislərin yüksək qiymətini qazanmışdır[42].

---

[40]Qəhrəmanova, Q. Qədim sənəti yaşadanlar // – Bakı: Qobustan 1976, №1 s. 37-40.

[41]Əliyeva, K. Əliyev K. Azərbaycanın Xalq rəssamının yaradıcılığı / K.Əliyeva – Bakı: Şərq-Qərb, 2014, s.60.

[42]Qasımova, E.Zər qədri // – Bakı: Mədəni-maarif. 2009. № 7, s.49-50.

Heydər Haşımov və Həsən Quliyev də Ümumittifaq sərgilərdə dəfələrlə iştirak etmişlər. 1959-cu ildə bu ustaların birgə işlədikləri boğazaltı ornamentlərinin bənzərsizliyi və bədii vasitələrinin zənginliyi diqqəti cəlb edir. Bu iki ustanın hazırladıqları qadın bəzəkləri (xalq rəssamı Lətif Kərimovun eskizi əsasında) xüsusilə qeyd olunmalıdır. Xarə və qarasavadın vəhdətindən istifadə ilə yüksək zövqlə düzəldilmiş bu bəzəklərdə firuzəyi daşların yerləşdirilməsi onları daha cazibədar edir.

1970-1976-cı illərdə zavoddakı eksperimentçi zərgərlərdən Ə.Zeynalov, F.Rəhimov, H.Abdullayev, C.Cabbarov, T.Rzayev və xüsusilə A.Əliyevin fəaliyyəti diqqətəlayiq olmuşdur. Onlar badamı, islimi, paxlava, buta, gül-qönçə, yarpaqlı şaxədən ibarət bir çox ənənəvi motivlərdən Qərb sənətinə mənsub dekorativ üsulla (kəsmə, oyma, tökmə) zərgərlik məmulatı emal etmişlər.

Bakı zərgərlik zavodunda 1970-1990-cı illərdə çalışan şəbəkə ustası Əbülfəz Məmmədovun yaratdığı zərgərlik nümunələri bədii ənənələri və özünə məxsusluğu ilə seçilmişdi. Sırğa, üzük, medalyon, bilərzik, xüsusi olaraq tac və s. bəzək əşyalarının yaradılmasında zərifliyi ilə seçilən şəbəkə üsulu ilə Əbülfəz Məmmədov tətbiq etmişdir.

Azərbaycanda sovet dövründə zərgərlik fabrikində və yerli sənətkarlıq emalatxanalarında yerinə yetirilmiş qiymətli metallardan hazırlanmış çoxsaylı zinət əşyaları istehsal olunmuşdu. Bu zinət əşyalarının bir çoxu qədim ənənələri özündə ehtiva edən elementlərlə və ornamental kompozisiyalarla bəzədilmişdir.

**II Fəslin “Çağdaş Bakı zərgərliyində ənənə və müasirlik probleminin həlli”** adlı 2-ci paraqrafında qeyd olunur ki, XX əsrin II yarısından başlayaraq qədim köklərə malik olan bədii metal və zərgərlik sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoyur. Məhz bu mərhələdə metalişləmə sənətində çalışan yeni istedadlı sənətkarlar formalaşır. Belə sənətkarlarımızdan biri olan Rəşid Məmmədov zərgərlik əsərlərinin çoxunda şəbəkə texnikasından istifadə edir. Usta düzəltdiyi zərgərlik əşyalarının çoxuna ad verib. “Gəlin” diademası,“Mehri”, “Tovuz”, “Gəlin”, “Payız yarpaqları” boyunbağıları,“Səbət”, “Piyalə”, “Saçaqlı”, “Payız yarpaqları” sırğaları,“Tovuz” üzüyü,“Gəlin” qolbağı və s. Bunlardan başqa, onun əsərləri arasında quranqabı, sinəbənd, qadın kəməri diqqət çəkir.

Rəssamın əl işləri Moskvadakı Şərq Xalqları İncəsənəti Muzeyi, Sankt-Peterburqdakı Ermitaj, Azərbaycan Milli Xalça Muzeyi tərəfindən alınmış həmin sənət əsərləri yüksək bədii tərtibatına, baxış zənginliyinə

və texniki cəhətdən ənənəvi üslubda işlənməsinə görə seçilirlər. Onun sənət əsərləri SSRİ-nin və Azərbaycanın bədii fondu tərəfindən də alınmışdır.

Azərbaycan metalişləmə və zərgərlik sənətinə öz töhfələrini vermiş, müasir dövrdə də öz fəal yaradıcılığını uğurla davam etdirən, əlvan metalla, ənənəvi bəzək üsulları ilə işləyən zərgərlərdən biri Camaləddin Əyyubovdur.Camaləddin Əyyubovun yaradıcılığı birinci növbədə çoxşaxəliliyi və unikallığı ilə fərqlənir. Qeyd etmək lazımdır ki, o yalnız metalın sirlərinə deyil, eyni zamanda Azərbaycan və dünya tarixinə, milli adət-ənənələrimizə, zəngin xalq və dünya folkloruna, müxtəlif dini və fəlsəfi görüşlərə dərindən bələd olan bir sənətkardır. Məhz bu səbəbdən onun əsərləri, xüsusən də onların tərtibatında istifadə edilmiş, müxtəlif üslublarda yerinə yetirilmiş buta, aypara, həndəsi, nəbati və s. kimi ornamentlər, qiymətli və yarımqiymətli daş-qaşlar dərin fəlsəfi və rəmzi məzmun kəsb edir və adi insana bu elementləri, onların rəmzi mənalarını dərk etmək çox çətindir[43].

Azərbaycanın şəbəkə ustaları arasında zərgərlik sənətində nadir hal hesab olunan qadın sənətkar Nina Paşayevanın yaradıcılığı xüsusi diqqətə layiqdir. Onun düzəltdiyi boyunbağı, iri sinəbənd, sırğa və s. nümunələr gah qabarıq bir lövhə, gah şəbəkəli bir ünsür, gah nazik burulmuş tel və daha neçə şəkil alır. Lakin ustanı özünə daha çox cəlb edən texniki üsul xalq arasında “müşəbağı”, “vovkarlıq” və “xarə” adı ilə tanınan üsullardır.

Cavanlığına baxmayaraq, Nizami Əyyubov artıq öz qabiliyyətini təcrübədə göstərə bilmişdir. Onun işləri 1999-ci ildən başlayaraq hər il gənc rəssamların respublika miqyaslı sərgilərində nümayiş etdirilir. Rəssam-zərgər bir neçə zərgərlik dəsti hazırlayıb. Onlarda öz üslubu və dəst-xətti olan ustanın peşəkar əli sezilir. “Sevgililər” adlı qolbaq və üzük, “Yelkən” adlı sırğalar və asma, “Xəzər” üzüyü – bütün bunlar heç də sözün adi anlamında zərgərlik komplektləri deyil. Bunlar daima seyr ediləsi müasir üslubda işlənmiş əsl dizayner işləridir.

Kamal Məmmədov zərgərlik nümunələrini işləyərkən həndəsi formalara daha çox üstünlük verir. Sənətkarın məmulatları üçün kürə, ellips, düzbucaq, düyün formaları təbiidir.

Şahin Qurbanov tamamilə başqa prinsiplə işləyir – onun əsərlərinə sərbəst surətdə canlı natura, təbiət fraqmentləri daxil olur. Hər bir ləçəyi

---

[43]Paşayev, H. Milli ənənələri yaşadan sənətkar // Palitra. – 2011. 20 aprel. – s.11.

hәkk edәrәk, rәngli daşları gül dәstәlәrinә yığan, sonra hәmin dәstәlәri qolbaqlara vә asmalara uyğunlaşdıran rәssam metalda canlı formaların analoqunu yaradır. Onun işlәrindә emalın incә işlәnmәsi, ritmin musiqiliyi, surәtә müvafiqlik duyulur.

Vüqar Xudaverdiyev – Azәrbaycan zәrgәrlәrinin yeni formasiyasının nümayәndәsidir. Gümüşә üstünlük verәn Vüqar, bu metalın mümkün emalının geniş imkanlarından – qarasavaddan, oymadan, şәbәkәdәn hәvәslә istifadә edir. Rәssam tәkcә Azәrbaycanın deyil, yer kürәsinin digәr ölkә vә regionlarının etnik motivlәrini aktiv öyrәnir vә yaradıcı surәtdә tamaşaçıya "ötürür".

Bu gün Bakı zәrgәrliyindә müşahidә etdiyimiz tәmayüllәr dekorativ-tәtbiqi sәnәtin bütün növlәri üçün sәciyyәvidir. Bütün bu novator axtarışlarının stimulu kimi hәr bir әşyavi formanın mәkandakı rolunun anlamı, real әtrafa olan yeni yanaşma, bu gün tamaşaçıdan rәssama olan yüksәk mәnәvilik, mәzmunluluq vә qüsursuz ustalıq tәlәbkarlığı çıxış edir.

Bakıda son illәr yaradılmış vә artıq brendә çevrilmiş "Rәsm Azericarpets" zәrgәrlik kolleksiyasının әsas qayәsini gözәllik, milli irs vә simvolika tәşkil edir. Bu üç sütun üzәrindә qurulan zәrgәrlik brendinin konsepsiyasının müәllifi olan Rәsminә Qürbәtova özünün yaradıcılıq axtarışlarında Azәrbaycan xalça sәnәtinә söykәnir. Onun yaratdığı zәrgәrlik kolleksiyasının mәqsәdi Azәrbaycanın milli irsi olan xalçaçılıq sәnәtinin tәbliğidir.

Yuxarıda tәqdim olunan Bakı zәrgәrlik sәnәtinin tәkamülü sübut edir ki, zәrgәrlik sәnәti nәsillikcә ötürülәn usta zәrgәrlәrin peşәkarlığını artır vә nәsildәn-nәslә daha da mükәmmәllәşirdi.

**Nәticәdә** tәdqiqatın әsas qәnaәtlәri yekunlaşdırılır:

- Bakı zәrgәrliyinin tunc vә erkәn dәmir dövrlәrini әhatә edәn ilkin mәrhәlәsi metal bәzәklәrin, elәcә dә daş-qaşlardan vә minerallardan olan mәmulatların texniki emalının tәkmillәşmәsi ilә sәciyyәlәnir. Basma üsulu ilә bürünc vә qızıl tәbәqәlәrdәn düzәldilmiş bәzәklәr, özlәrinә mәxsus hәcmli plastika ilә seçilir, ayrı-ayrı mәmulatlarda olan analoji detal uyğunluğu bәzәklәrә tamlıq verir vә vahid üslubun formalaşmasına gәtirib çıxarırdı;
- antik dövrün әn gözәl әnәnәlәrini inkişaf etdirmәyә davam edәn orta әsr Azәrbaycan, o cümlәdәn Bakı zәrgәrlik sәnәti islam dini ilә gәtirilmiş dәyişikliklәrә mәruz qaldı. Әsas dekorativ motiv әtrafında

məkanı dolduran,öz ritmi və formasına tabe edən nəbati dekor, bütöv ornamental həllin yaranmasına səbəb olurdu;

- Bakıda patriarxal-feodal münasibətlərin və feodal cəmiyyətin mədəniyyətinin konservasiyası ilə müşayiət olunan XIX əsrdə, yeniliyin inkişafına və axtarışına təbii meyl var idi. Sinfi cəmiyyətin mövcudluğu, eyni növ bəzəklərin nüfuz mənasına görə təsnif olunmanı nəzərdə tuturdu;
- XX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda minasazlıq, qaxma və zərgərlik məmulatlarının digər tərtibat texnikaları bərpa edildi. Bu dövrdə Bakıdakı kustar kooperasiyasının zərgərlik emalatxanalarında qadın zinət bəzəklərinin istehsalı ilə bağlı əhəmiyyətli iş aparılırdı;
- bu gün Azərbaycanın ornament tipli yaradıcılığına əsaslanan zərgərlik sənətində milli ornament ənənələrinin köklərinə daha dərindən diqqət yetirmək və eyni zamanda onun yeniləşdirilməsi yollarını və müasir həyatla, bugünkü tələblərlə əlaqələrini tapmağa qətiyyətli cəhd müşahidə olunur. Bu yolda Bakı zərgərlərinin vaxtilə yaratdıqları sözün əsr mənasında sənət əsərlərinin texniki üsullarının və bədii tərtibatının öyrənilməsi gənc nəslin bir ustad kimi formalaşmasında təkan ola bilər. Köhnə sənətkarların məmulatlarından bəhrələnmək, bu sənəti yaşatmaq və inkişaf etdirmək deməkdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə əksini tapmışdır:**

1. Rəşid Məmmədovun zərgərlik sənətində milli üslub // İncəsənət və mədəniyyət problemləri AMEA Memarlıq və İncəsənət İnstitutu. №1-2 (27-28). Bakı, 2009, s. 212-218.
2. XIX-XX əsr Bakı zərgərliyinin Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafında rolu // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. №1-2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi L.Kərimov adına Azərbaycan xalçası və xalq-tətbiqi sənəti Dövlət muzeyi. Bakı, 2009, s. 45-58.
3. Azərbaycan zərgərlik sənətinin formalaşmasında Bakı zərgərlik zavodunun rolu // Mədəniyyət dünyası XIX c., Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2010, s.127-131.
4. Bakı zərgərlik sənətində ənənə və novatorluq // Təsviri və dekorativ-tətbiqi
sənət məsələləri, №1(3).Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi L.Kərimov adına Azərbaycan xalçası və xalq-tətbiqi sənəti Dövlət muzeyi. Bakı, 2010, s. 89-96.

5. Bakı – XIX əsr Azərbaycan zərgərlik sənətinin mərkəzlərindən biri kimi // Elmi əsərlər №11, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, 2011, s.142-147.
6. Nina Paşayevanın şəbəkə bəzəklərinin bədii xüsusiyyətləri // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, №1(7). Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi L.Kərimov adına Azərbaycan xalçası və xalq-tətbiqi sənəti Dövlət muzeyi. Bakı, 2011, s.94-98.
7. Metaldan yaranan gözəllik // Azərbaycan xalçaları, №1, Bakı 2011, s. 138-143.
8. Zərgər Hacı Şamov yaradıcılığına bir baxış // Mədəni həyat №3/4 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı, 2012, s.78-80.
9. Zərif əllərlə qızıl və gümüş tellərdən yaradılan gözəllik // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, №21. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Azərbaycan Milli Xalça Muzeyi. Bakı, 2019, s.9-13.
10. Ручные украшения Бакинских мастеров из археологогических раскопок в Ичери-Шехер, Colloqium-journal, Warszawa, Polska, №33 (120) 2021, s. 7-9.
11. The World's Art Trends in the Traditional Jewelry of Baku // Colloqium-journal, Warszawa, Polska, №9 (132) 2022, p. 9-12.

12. Bakı zərgərlərinin yaradıcılığında mina sənətinin bədii xüsusiyyətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi konfransı (II). Bakı, 2011, s. 444-446.
13. Ювелирные украшения из захоронения в Бакинской Крепости // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы II Международной научно-практической конференции. 23-24 апреля 2015 года. Пятигорск., с.254-257.
14. Bakı zərgərlik nümunələri Azərbaycan Milli Xalça Muzeyində // MİRAS, Azərbaycan arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu Beynəlxalq konfransın materialları. 25-26 avqust 2020. Ağsu. s. 239-244.
15. Müasir xalça rəssamlarının yaradıcılığında ənənəvi zərgərlik sənəti. Rəssam və xalça: Bu gün və sabah adlı beynəlxalq elmi-praktik konfrans. 21-22 oktyabr 2021, Bakı.

Dissertasiyanın müdafiəsi 19 sentyabr 2022-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 avqust 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15 iyul 2022-ci il
Kağızın formatı: A5
Həcm: 40617
Tiraj: 100